# Gəncədə dahi şair Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş ümumşəhər tədbiri keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, bu il ölkədə dahi şair, böyük mütəffəkir Nizami Gəncəvinin 880 illiyi ilə əlaqədar olaraq "Nizami ili" elan olunub. Bu münasibətlə Gəncədə ümumşəhər tədbiri keçirilib.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş Konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki Baş Konsulu Nikolos İaşvili, Milli Məclisin deputatları, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə qonaqlar Nizami Gəncəvi yaradıcılığına həsr olunan sərgiyə baxış keçiriblər. Sərgidə Gəncə Dövlət Kukla Teatrının, Gəncə şəhər Uşaq İncəsənət və Uşaq Rəssamlıq məktəblərinin, o cümlədən Gəncə Dövlət Rəsm Qalereyasının hazırladığı sənət əsərləri nümayiş etdirilib.

Rəsmi açılışda "Nizami ili" çərçivəsində keçirilən tədbirin torpaqları işğaldan azad olunmuş qalib ölkədə qeyd olunmasının ikiqat sevincə səbəb olduğu xüsusi vurğulanıb, Vətən uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Nizami Gəncəvi yaradıcılığına nəzər salınıb. Bildirilib ki, Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb-yaradıb. O, Yaxın və Orta Şərq fəlsəfi-ictimai, bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini məhz burada ərsəyə gətiribdir. Dahi şairin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanıb. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan verib.

Rəsmi hissədən sonra Gəncə Dövlət Dram Teatrının təqdimatında "Xəmsə" ədəbi-bədii kompozisiyası nümayiş etdirilib. Sonra Gəncə Dövlət Filarmoniyasının xalq çalğı alətləri ansamblının ifasında konset proqramı nümayiş olunub. Konsertdə Xalq artisti Sevinc İbrahimova , Əməkdar artistlər Kəmalə Tağızadə, Mehparə Cəfərova, Tural Abdullayev və digər ifaçıların çıxışları şəhər sakinlərinin zövqünü oxşayıb.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə "nizamiganjavi.az" saytının yaxın günlərdə istifadəyə veriləcəyi barədə iştirakçılara məlumat verilib. Saytda dahi şairin həyatı, yaradıcılığı haqqında tədqiqatlar, maraqlı məlumatlar öz əksini tapacaqdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***







